# AQŞİN YENİSEY

# ŞEİRLƏR

***

Yanır qaz sobası, dörd divar... pəncərə
Bir cüt göz zillənib qüssəli... şəhərə
Qorxunc səsi eşidilir dövlətin küçədən
Polisdir, saxlayıb sənəd istəyir şəhərə dönən gecədən
Günəşsə doğub-batmaqdan bezgin halıyla
Yollanır uzaq bir dağın arxasına
Axşamüstü yalqızlığın Renesans dövrü başlanır.
Tənhalığın bezdirici eyniliyi düşündürür adamı;
ən böyük hakimiyyət tabe olmamaqdır.

Qapı döyülür, qonaq gəlir ikiayaqlı gözəllik...
Tərkibi bir cüt döşdən, nəm paçadan və sadiq qəlbdən ibarətdir
Qapıya yüyürür ac sevgi.
gözəllik - ət kimi çox tez iylənir evə girdikdə.

qadınlar – bu məişət inkivizatorları
yandırdıqları tonqala atırlar
öz ərlərini

Amansızcasına!
hərdən öz halıma ağlayıram gecələr
bacımsızcasına, anamsızcasına

nə vaxtsa adı sevgi olan şey
indi baş ağrısıdır, əsəb pozğunluğudur
nə vaxtsa adı sevgi olan şey
indi ABŞ dollarıdır, qara bazar onluğudur.
nə vaxtsa adı sevgi olan şey
indi məişət fironluğudur.
Sevgi hələ quldarlıq dövründədir.
Hələ sevgidə inqilab yoxdu, üsyan var
Məhbəs yoxdur, edam var.

Bədbəxtliyin isə xronologiyası adi və sadədir:
Yanvar. Soyuqdur, evdəsən və təksən
Fevral. Soyuqdur, evdəsən və təksən
Mart . soyuqdur, evdəsən və təksən
Aprel. Soyuqdur, evdəsən... amma yoxsan
Yəni ölmüsən, ya da bir azdan öləcəksən.

Gün batır,
Bu zaman onun üstünə yuvasına tələsən bir quşun kölgəsi düşür,
bir anlıq.
Otuz iki ildir tanıyıram o quşu
Otuz iki ildir seyr edirəm bu batışı
Otuz iki ildir hər gecə bir az da qatılaşır bu qaranlıq.

## Yazıçı

Sənin ağrıların kiriyən deyil;
Nə qan,
Nə göz yaşı,
nə də araqla.
Otur taleyini köçür kağıza;
Nə iç,
nə damar kəs,
nə də ki ağla.

## Tale

Yaz dirildir
Yay öldürür
Payız dəfn edir
Qış unutdurur
Eşşəkqanqalını

Bu sevgim də daşa dəydi
Bəxtəvər daşın başına

Qocalmışam göy üzü tək
Asta-asta qar yağıram
Sağ əlim qışın başına.

Qədim yunan allahları
Üç-dörd nəfər şərq şairi
Yığışmışıq qədim evdə
Bir qazan borşun başına.

Bütün ev tüstüylə dolub
Xəbər var, Paris dağılıb
Bütün səfillər yığılıb
Yenə Qavroşun başına.

Bəs o kimdir göydən baxır
Bilinmir, sevir, darıxır
Şimşəklər də güllə çaxır
Yağan yağışın başına

***

Qaranlıq qəfildən qəhqəhə çəkdi
Qəfildən yağış da kəsdi, yağmadı
Binanın damından bir adam düşdü
Göyə yollanırdı, yerə yapışdı
Mən evdə tək idim, əzab çəkirdim
Qəfildən həyətdə bir səs-küy qopdu
Bir arvad çığırdı üzüyuxarı:
- «İsanı kölələr şillələdilər!»

Qazanın dibində yatmışdı yemək
Onu da, məni də oyatdı isti
Pisdir, axşamüstü yaşamaq pisdi!
Götürüb zəng vurdum, İlham Tumasa
Bir az söyüş söydüm, bir az ağladım
- təzə nə xəbər var - soruşdu məndən
- İsanı kölələr şillələdilər!

Süfrənin üstündə hər şey yarımçıq
Çağırdım, səslədim qarışqaları
Evdə heç kim yoxdur, bu necə evdi?
Özüm yarım saat qarışqa oldum
Vurnuxdum boş evdə, gəzdim boş evdə
Yarım saat çəkdi qarışqalığım
İsanı kölələr şillələdilər…

Kafir təfəkkürlü bir qızı sevdim
Sevgimi fikrimdə doqquza vurdum
Alınan hasili ikiyə böldüm
Axırda bir uşaq qalıq alındı
Can atdım, can atdım adam olmağa

Məndən quş alındı, balıq alındı

Ağac şəkli çəkdim bekarçılığa
Geyindi dərisin şair Nəsimi
Dedi, üşüyürəm, ev nə soyuqdu
İsanı kölələr şillələdilər.

Təkliyin dibinə göz yaşı tökdüm
Bir az tez yetişsin ölüm meyvəsi
Mənim dostum divar, düşmənim divar
Bağışla, sənə də bir yumruq vurdum
Bağışla, yediyim ördək qanadı
Bağışla, bağışla udduğum hava
Udub ciyərimdə incitdim səni
Bağışla, bağışla sol ayaqqabım
Sənə mıx vurdurub, yumdum ağzını
Bağışla şeytanı, bağışla tanrı!
Bağışla tanrını, bağışla şeytan!
İsanı kölələr şillələdilər

**Həmid Herisçi ilə yolüstü söhbət**

Günəşin əriyib yerə töküldüyü bu şəhərin göylərindən
Hər gün ümid durnaları çığıra-çığıra uzaqlaşır
Bu qala divarlarınn önündə
hər şey, hamı yalqızlaşır
Sərin meh də sazaqlaşır!
Başını kəsirlər Sisianovun

Sanki, ilk dəfə görüşür Allahla yara.

...gec-tez dərdə çevrilir sevgi.

Qadın ilk növbədə sevgini sənədləşdirir
Allahı kağıza köçürür peyğəmbər
əlinin qanının kağıza silir tarix,
və gələcək nəsillərə uzadır.

Gələcək nəsillər... yazıqlar... gələcəklər
Bütün köhnə əzabları yenidən çəkəcəklər.

Yaxşı insanla hər gecə
Mütləq kimsə vidalaşır, kimsə ondan uzaqlaşır.
Bu qala divarlarının dibində

vətəndən didərgin düşməyə hazırlaşan
Iki şair qucaqlaşır.

Bu vaxt meh də sazaqlaşır.
Bu vaxt Allah yoxa çıxır
bu vaxt insan yazıqlaşır.

Bu vaxt göz yaşları daha da duru,
Siqaretin tüstüsü daha da acı olur
Tale üz çeviribsə
Qızılgül kolu da adama dar ağacı olur.

Günəşin əriyib yerə töküldüyü bu şəhərdən
Çıx get, şair!
Başın burdakı bədənlərə ağırlıq edir.

## Gecəyarı boş küçəyə suallar

İstəyərdinizmi ürəyiniz adi insan ürəyi olsun?
Yəni bir az daş.
İstəyərdinizmi gözləriniz adi insan gözləri olsun?
Yəni bir az kor
İstəyərdinizmi adi insan kimi ağlayasınız?
Yəni hərdən, aradabir
İstəyərdinizmi pəncərədən adi insan kimi baxasınız?
Yəni intihar etmək üçün yox
İstəyərdinizmi küçədə adi insan kimi dayanasınız?
Yəni getməyə yeri olmayan biri kimi yox

Yoxsa elə sizdə belədir?

## Buludxan

Arvadı, atı, iti, bir də çomağı vardı
Təpənin üstə qalxar, çomağına söykənər, yamacdakı ot basmış
Qəbirlərə baxardı
Buludxan.

əvvəl arvadı öldü

sonra at
sonra da it.

Həyatda söykənəsi bircə çomağı qaldı
Buludxanın.

Ağlamadı yuyulsun, çirkləndi kir oldu gözləri
O qədər bir yerə zilləndi birləşdi, bir oldu gözləri
Təpənin üstündcə lal-dinməz kor oldu gözləri
Dünya daha görünmədi
Buludxana.

Nə su içdi, nə ağzına tikə qoydu
Yeməsə də, içməsə də
Kimi ona su apardı, kimi ona kökə qoydu
Buludxanın acığına Buludxan bu kökə qoydu
Buludxanı.

Hərdən ölü zənn etdilər, gedib gördülər diridi
Təpə üstə bir çomaqdı, bir sümükdü, bir dəridi
Kişi dönüb ana oldu
Nə qədər dərd yuxuladı, nə qədər ağrı kiridi
Buludxanda.

Bir gecə şimşəklər çaxdı, göy gurladı
Və sel basdı bütün kəndi.
Gəldilər ki, aparsınlar, bircə kəlmə “gedin” dedi.
O gecə təpənin üstə
Ölümlər xacalat çəkdi, Əzrayıllar üzr istədi
Buludxandan.

## Məktub

***

Gözlərindən ötrü darıxan var burada
Baxılmaq istəyir sənə
Sevgidə azyaşlıdı, ayrılıqda ahıldı
Birdəfəlik rədd olmaq,
Yox olmaq istəyir sənə.

***

Tək-tənha şax dayanmaq yorub onu
Hardasan?

Yıxılmaq istəyir sənə.

## Yeni il tənhalığı

Bakıya qar yağmadı, qarsız düşdü qış bizə.
Şaxta baba və qar qız, gəldilər yanlış bizə.
Dustaqlar buraxıldı... şeş düşdü tale zəri.
Qazamatda açıldı yeni dustaq yerləri.
Pəncərədən boylanıb baxdım,
...baxdım ölkəmə.
Xəyalımda dalbadal güllə çaxdım ölkəmə.
Korladı əhvalımı, millətin girincliyi.
Vətənin bol-bol nefti, işsiz, evsiz gəncliyi.
Sonra da üzüquylu zülüm-zülüm ağladım.
Gedənə rəhmət deyib, gələnə yas saxladım.
Xəyalımda canlandı dostlarımın taleyi.
Xalqın deyingənliyi, hökumətin gileyi.
Alt-üst olmuş ömürlər
...hər yan bomboz tənhalıq.
Bu da bayram süfrəsi; yarım araq, şor balıq.
Bir də yalqız kitablar, düzülüblər yan-yana.
Niyə hər şey düşməndir, hər şey, hər şey insana?
Ot basıb hər cığırı, yox daha ümid yolu.
Qəlbim yalqız və bomboş, külqabımsa dopdolu.
əsəblərim pozulmuş, yuxuda da qan-tərəm.
Getedən daha qoca, gənc Verterdən betərəm.
Qulliver də deyiləm, çıxıb səyahət edim.
Üç-dörd lilipud qalıb. Mən axı hara gedim?
Bəlkə, Bulqakov kimi məktub yazım padşaha.
Görən, bu hərəkətim xoş gedərmi Allaha.
Bəlkə, Tolstoy olum, atım gedim mülkümü.
Bəlkə, quruyum ot tək, bəlkə, solum gül kimi.
Ya da sərgərdan olum Knlupa çevrilim.
Üsyan edim özümə, taxt-tac kimi devrilim.
Ya da Çörçillsayağı qurşanım siqaretə.
Bir memuar da yazım. Lazım olar millətə.
Ya da ki Homer olum, bəlkə, gözüm tutula.
Bəlkə, gözüm görməyə, bəlkə, canım qurtula.
Hüqo da çox uzaqdı, başı qarışıb nəsrə.
Taksi də baha gedir on doqquzuncu əsrə.
Bu vaxt kim bikar olar, ağlıma kimsə batmır.
Svayq evdə olmaz, Selincerə zəng çatmır.
Qorki də çox qocadır, içkini də tərgidib.
Hadi də itkin düşüb, yer üzünü tərk edib.
Məmmədquluzadə də, deyirlər, can üstədir.

Fiscerald ayıq olmaz, Kafka da ki, xəstədir.

Bəlkə, Dostoyevski? O da yəqin kart sıxır.
Pamukla dalaşmışıq, məni Rollan Bart sıxır.
Balzakla da alınmaz, özündən çox razıdır,
onunku ya romandı, ya fransız qızıdır.
Bəlkə, Somerset Moem? Görən, indi hardadır?
Heminquey yüz faiz bahalı bir bardadır.
Puşkin də yaralıdır, yatır xəstəxanada.
Bədbəxt, bir arvad üçün özünü verdi bada.
Nazim Hikmət türmədə, Turgenev də Parisdə.
Tolstoyla dalaşıb ucuz bir ləçər üstə.
Bəlkə, bir viski alım, qonaq gedim Markesə.
O da bir şey bişirtsin arvadı Mersedesə.
Dünya necə qapanıb, buz bağlayıb qütblər.
Pelevin Tibetdədir, Limonovu tutublar.
Belə gündə Yesenin! Yeyən, içən arvadbaz.
O da özünü asdı bizim vaxtla keçən yaz.
Bəlkə, filosoflardan hansısa bikar olar.
Onlar da çox danışır: “Allah yoxdur, Allah var...”
Onlardan abırlıdır, çox yazsa da Şekspir.
Onun da başın pozub, Dezdemona, Kral Lir.
Bir az yaşlı olmasa, Hamsun hamıdan dincdir.
Kuper meşədən çıxmır, Çinkaçukla girincdir.
Adamın Ekoya da gəlmir fikri, gümanı.
Görməyə də gözüm yox, ata-oğul Dümanı.
Zəhləm gedir Sinklerdən, fırıldağın biridir.
Çoxdan ölüb zırrama elə bilir diridir.
Harda qalım ilahi, hara gedim ilahi?
Özünü qoy yerimə, mən nə edim ilahi?
Bəndələrin yerdədir, sən göydə nə gəzirsən?
Gəl, bir insan ömrünü, yaşa görüm, dözürsən?!
Alt-üst olmuş ömürlər,
... hər yan bomboz tənhalıq.
Bu da bayram süfrəsi; yarım araq, şor balıq.

## Qiyamət gecəsinin səhəri

*Şahin Ağabəyliyə ithaf*

Tanrılar dizinə döyür, yolur saçını mələklər
At əvəzi it oynadır küçədə kefli küləklər
Boş-boşuna cırıldayır, yellənir boş yelləncəklər
Səbəb: gedənlər getdilər, bir daha dönməyəcəklər

İldırım yumruqtək dəyir, gecənin yırtıq köksünə
Bir vaxt ərşə çəkilənlər qayıdırlar yer üzünə
Doğmalıqlar yoxa çıxıb, hamı ögeydir özünə
Vurnuxur qorxu içində yalqızlar, tənhalar, təklər
Səbəb: gedənlər getdilər, bir daha dönməyəcəklər

Zühurlar...qiyamətlər...qeybolmalar... fanilər...
Qarışıb bir-birinə əbədilər, anilər
Qurbanlar caniyə dönüb, qurban olub canilər
Zalım olub mərhəmətlər, köməksiz qalıb köməklər
Səbəb: gedənlər getdilər, bir daha dönməyəcəklər

Açılıb sirlərin üstü, quma dönüb nə ki daşmış
Nə gələn varmış, nə gedən! Qəbirlərin içi boşmuş
Dünya ər-arvad dünyası – sevgiləri əldən düşmüş
Cocuğu yerdə iməklər, Tanrısı göydə iməklər
Səbəb: gedənlər getdilər, bir daha dönməyəcəklər

Günəş içində gəzdirir ən əbədi qaranlığı
O taydan bir quzu səsi titrədir boz dumanlığı
Bu səs – itkinlik fəryadı, həm tapılmaq gümanlığı
Hardasa bir ac canavar şöngüyüb qismətin bəklər
Səbəb: gedənlər getdilər, bir daha dönməyəcəklər

Nəhəng bir dağ da laxladı, aşdı göydə tozu qaldı
Qayalarının altında zirvə adlı arzu qaldı
Dünyanın qanı qurudu, nə qurd, nə də quzu qaldı
Qarışqalarda əzildi. Sındı ən kiçik dirəklər
Səbəb: gedənlər getdilər, bir daha dönməyəcəklər.

*(ardı olacaq)*

### Günel üçün

Bir zəlzələlik canı var şəhərlərin
Bir sevgilik ömrü var şairlərin
Bir nəfərlik unudulmaq qorxusu var qadınların
Şəhərlər zəlzələdən,
Şairlər sevgidən,
Qadınlar unudulmaqdan qorxur.

Zəlzələdən sonra şəhərdən nə qalırsa
Divar odur.
Sevgidən sonra şairdən nə qalırsa
Söz odur.

Unudulandan sonra qadından nə qalırsa
Sən osan.

## Qiyam

Uzun illər
ayaqların əsarətinə dözən əkiz çəkmələr
Köhnəlib çıxdılar azadlığa – atdılar onları küçəyə.
Azadlıq onları əydi, çürütdü və yox etdi.
Zaman göz qırpımında insanın barmağını əzdi cəkiclə
Və çıxıb getdi.
Zavallı özü sarıdı yarasını kirli əsgiylə
Uzaqdan adama bənzəyən içkili bir ölüm
Uzanmışdı səkiyə
Anlaşılmaz sözlər danışırdı
XXI əsrə.

## Yarımçıq

Nə vaxt pəncərədən baxsam
Evdə tək olduğumu görərəm
Mütləq bir qadın görünər gözümə
Hətta qasırğa olsa, qaranlıq olsa yenə
Hardansa bir Marqarita qəhqəhəylə uçub keçər
Minib süpürgəsinə.

Nə vaxt pəncərədən baxsam
Evdə tək olduğumu görərəm
Mütləq bir dilənçi görünər gözümə
Hətta qasırğa olsa, qaranlıq olsa yenə
Hardansa bir qarışqa da çıxar çörəyin üstünə.

Nə vaxt pəncərədən baxsam
Evdə tək olduğumu görərəm
Mütləq bir qoca görünər gözümə
Hətta qasırğa olsa, qaranlıq olsa yenə
Qoca canlı bir ölütək gülümsünər üzümə.

Nə vaxt pəncərədən baxsam
Evdə tək olduğumu görərəm
Mütləq bir siçan görünər gözümə
Hətta qasırğa olsa, qaranlıq olsa yenə

Yalvarar ki, siçanam mən, Tanrının sonbeşiyiyəm
Yerimi heç kimə demə.

Nə vaxt pəncərədən baxsam
Evdə tək olduğumu görərəm
Hətta qasırğa olsa, qaranlıq olsa yenə
Göy üzünə xəncər ucuyla cızılmış ay görünər gözümə...

**Ey gəlməyən**

*Ey mənə bənzər insan, sən hardasan?*
*Həmid Herisçi*

Ey gəlməyən, gələ bilməyən insan
Hardasan?
Səni düşünürəm, halına acıyıram
Yəqin, indi sən də soyuqlamısan
Təksən, xəstəsən, ölüm ayağındasan
Güzgünün qabağındasan, ölməyinə tamaşa etməkdəsən.

Şalvarının qurumuş palçığını ovursan
Bəlkə də, ölüm xəbərini gətirmiş ilk qara milçəyi qovursan
Üzündən
Ya paytaxt qəzetlərinə baxırsan, ya da
Hirslənib özündən çıxırsan, bir daha geri dönməmək şərtiylə.

Ey gəlməyən, gələ bilməyən insan
Bilirəm darıxırsan
Səni də tərk edir birisi
Arxasınca qapıya yox, pəncərəyə cumursan
Getməyinə baxırsan onun, daha doğrusu, qayıtmamağına.
Palçığa batmış qaşqabaqlı ay var göyün üzündə
Batmağa tələsir
Ey gəlməyən, gələ bilməyən insan
Yəqin, yalqızlıqdan sənin də əllərin əsir
Gəlməyin gəlməməyə bənzəyir.

Toxuduğu tora əbədi düşən hörümçəyəm mən,
Eyyyy gəlməyən...

## Köhnə nal

Tarixin ayağından qopub düşən bu dəmir qırığı
Öz əyri sükutuyla haraylayır onu atıb gedənləri
Dördnala çapıb getmış, bu tozlu yolla keçmiş
Arxasınca qalxan toz hələ də çəkilməmiş

Tarixin alnıdır, at ayaqlarının altı
Tarixin alnına vurulan bu dəmir qırığı
Öz əyri sükutuyla haraylayır onu atıb gedənləri
Həm də indiyədək üstündə saxlayır, böyük sərkərdənin ağırlığını

Tarixin ayağından qopub düşən bu dəmir qırığı
Odur bu tozlu yolun yeganə dəmir sirri, kövrək xəyalı
Öz əyri sükutuyla haraylayır onu atıb gedənləri
Üfüqdən yəhərli, yüyənli bir at qayıdıb, imsiləyir yerdəki nalı.

## Sübh çağı

Allahım, bu sərçələri
Nə balaca yaratmısan
Çox allahlıq eləmisən
Çox qəlbləri qanatmısan

Ovcumun içi boydadır
Ən balaca daşnan ölür
Mənə elə bir tale yaz;
Ən böyük dərdnən yaşayım
Ən balaca quşnan ölüm.

## Axşamçağı

Sənə məktub yazıram
Yazıram ki,
Bağışla…
Burda hava pis keçir
Ara vermir yağışlar

Tək yatıb, tək durmaqdan
Bezdirmişəm otağı
Bilirsən…
pinti olur
Yalqızların yatağı.

Yalqızlar az yuyunur
Gəlir yalqızlardan iy
Çayları soyuq olur
Yeməkləri alaçiy

Çirkli ayaqqabılar…
Dibi yanmış qazança…
Bir qırıq da ümid var;
…qayıdacaq haçansa…

Yalqız sabaha baxmır
Arzulayır keçmişi
Çox miskin mənzərədir
Ev yığışdıran kişi

Hələ bunun gecələr
içib ağlamağı var
saçın daramamağı
saqqal saxlamağı var.

Dərd ağır, hava da pis
Ara vermir yağışlar
Sənə məktub yazıram
Yazıram ki,
Bağışla…

## Pota

*Şeir Firudin Allahverdi üçün oxunub*

Pota, yeməyi qaşıqla ye,
Kasıblıq hamıya əllə yeməyi öyrədir

Küçəyə bir yumurta düşüb sınıb, hansısa bədbəxtin zənbilindən
Ağzı üstə yerə düşmüş balaca günəşə bənzəyir.

Siqaret dənələri
Beş altı qəpik-quruş
Balaca bir foto də var… unudulmuş
Pota,
Mən sənə cibimdən danışmıram, qəlbimdən danışıram

Səhərlər günəşin necə gənc
Axşamçağılar necə qoca göründüyünü
Mənə göstərmə, Pota
Biz atanın aldığı ayaqqabıları geyinib böyüyən
Uşaqlardan deyilik.
Biz ayaqyalın böyüyüb qoca atasına ayaqqabı alan
Qoluzorlularıq.

Pota,
Yerusəlimdən qayıdan xəstə Qoqolam mən
Peyğəmbərin belə ümid vermədiyi ölümcül yolçu
Qaranlığa bulaşmış palçıqlı çəkmələrimlə
Ölmək üçün dönürəm vətənə.

Pota, bundan sonra
Sənə nə vaxtsa araba təkəri, un kisəsi
Sandıq qıfılı, samanlıq, nə bilim,
Dibində yod qalmış şüşə lazım olsa
Məni axtar.
Sənə nə vaxt mən lazım olsam
Soruş ki, burda araba təkəri, un kisəsi
Sandıq qıfılı, samanlıq, nə bilim,
Dibində yod qalmış şüşə
Görməmisiniz ki?

## Sevginin ı qanunu

Məhəbbət adət halını almış adi yaxınlıqdır.
N. Dumbadze

Kandarda gözə dəyən kişi çəkməsinin tozlu izi,
Pencəyin yaxasında yaxalanmış qadın saçı
Bütün insani hisslərdən ucada durur!

## Vidalaşma

1.

Hardansa çox uzaqdan gəlib
Masamın üstündəki quru çörəyin içində
Gizlənpaç oynayır, beş-altı qarışqa
Gizlənirlər, yəni yox olmağı öyrənirlər indidən
Mənsə çörəyin nəhəngliyinə baxıram.

2.

Təkcə torpağın altında deyil
Yorğanında altında da çürüyür insan bədəni
Vətəndən tək qalanda, millətdən tək qalanda, qadından tək nalanda
Təklik yoluxucudur, vətənin xinaliyindən yoluxur,
millətin avamlığından, qadının acgözlüyündən yoluxur insana
Məsələn, mənə ağız suyuyla yoluxdu
Sevgisində dəniz quldurunun tamahı gizlənən qadınabənzər birindən
Təklik sevginin suçudur!
Bilirəm ki, indi hardasa unuduluram
Yaddan çıxıram, indi hardasa yox oluram.
Başqa oluram, başqa
Çünki ağzı üstə uzanmışam döşəməyə
Çünki uzaqdan gələn var… beş-altı qarışqa…
Unudulmaq və ölmək
Qorxudan arzuya çevrilibsə
Yoxdu vətən
Yoxdu millət
Yoxdur qadın.

3.

Bakı, gecələrinə tapşır evimə zəng vurmasın
Kafelərinə tapşır yemək verməsin mənə
Ağcaqanadlarını suvarma qanımla
Küləklərini əyləndirmə divanə saçlarımla
Öz gözlərinlə oxu taleyini
öz əllərinlə yaz intihar məktubunu
Gözlərinmdən, əllərimdən əl çək, Bakı
Taleyimdən əl çək!
Əl çək yazyaşlı uşaqların əliqə tabaşir verib alnına yazı yazdırmaqdaq
Küçələrində soruşma saatı məndən
Soruşma xoşbəxtliyə necə getmək olar, hardan getmək olar?
Hansı avtobusa minirsən, min
Hansı cəhənnəmə gedirsən get, Bakı

4.

Mənə ölümü xatırladırsan, şair
Soyuqsan,
Sükutsan
Sirli və
Vahiməlisən
Gözlərin buralı deyil

5.

«əlvida» deyilirsə bədənənin hər yerinə deyilir
Yoxsa, heç olmasa, sol qolumu götürərdin özünlə
Mürgülüyəndə başının altına qoymağa
Sağ əlimdəki çapığı götürərdin
Sadiqlik öyrənərdin ondan
«əlvida» deyilirsə, bədəninin hər yerinə deyilir
Gedibsə, leylinin hər yerindən gedib Məcnun
Vətənin hər yerindən qeyb olub Hadi
Şərqin hər yerindən üz çevirib Nəsimi

6.

Gecəyarıdır, Müşfiq əfəndi, zivəyə asılmış boş paltarlarda
Qədim vahimə yellənir
Yəni hələ insan dünyaya gəlməyib, bu paltarları geyinən olmayıb
Telefonu söndur ay bədbəxt şiar
Sənə heç vaxt, heç kim zəng etməyəcək
Həmişə arxanca gələcəklər
Güllələyəcəklər, gülümsəyəcəklər…
Ora bax, Səhərə ağarır və küçəyə çıxır ilk insan
Günün ilk bəndəsidir, Adəmdir, çörək almağa tələsir.
Bir zamanlar palçığı yoğurub adam yaradırdılar

İndi insanı tapdayıb palçıq düzəldirlər.

7.

Soruşsalar deyərsən ki,
O, köhnə bir gəmi idi, üzdü batdı sularda
Boğuldu göyərtəsindəki bütün adamlar
O, ağ rəngli uçak idi, düşdü tikə-tikə oldu
Öldü içindəki bütün adamlar
O, uzun bir qatar idi, getdi, birdə qayıtmadı
O, yolçusuz bir yol idi, zəmilərin arasında
Soruşsalar aldatmazsan, deyərsən ki,
Çox içirdi
Deyərsən ki,
O, ölümə tələsmirdi, o, ölümə gecikirdi.

8.

Çıx get burdan, Bakı
Allah xatirinə, çıx get burdan
ət dükanlarının üstünə «ƏT» sözünü böyük hərflərlə yazıb
Yerdə qalan hər şeyin çox kiçik olduğunu göstərən
Sallaqxana sahibi, sən deyilsən?
milçəklərin qanadını yolub üstlərinə tüpürən
Onları öz tüpürcəyində boğan
Vağzal kafesində gözümlə gördüyüm bədbəxt fahişə, sən deyilsən?
qoltuğunda nərdtaxta
Səhərlər çayxanaya, axşamlar ölümə tələsən gərəksiz qoca, sən deyilsən?
Sənin qızın deyil qız qiarımış «Qız qalası»
Şəhərsənsə, falçıya get, qurbanlar kəs
Özünü inandır ki, xoşbəxt olacaqsan, qızını ərə verəcəksən
Çıx get burdan, Bakı
Allah xatirinə, get Lökbatanda yaşa
Yerə tökülmüş quru meyvələri yeyən
Atasız böyüyən ağzıpalçıqlı oğlunu da özünlə apar
Bir də Bakıya qayıtma, Bakı.
Sən şəhər olmayacaqdın
Uçuq bir daxma olacaqdın uzaqbaşı
Daxmanın içindəki yalqız bir sərgərdan olacaqdın
Özündən başqa heç kimin olmayacaqdı.
Sən Bakı olmayacaqdın, Bakı.
Çıx get burdan, allah xatirinə.

9.

ayaqlarımı arxanca göndərirəm
Əllərini ver ayaqlarıma gətirsinlər mənə
Sinəmdə tək yaşayıram, yolun düşsə, qalx yuxarı
Vicdanımı da köçürdüm, allaha ərə getdi
Bədənimin hər yeri xorla çığırır arxanca
Qayıt!!!
Ağlayır arxanca bu sovxanın hər yeri

Qayıt sakitləşdir bu ac yetimçələri.

10.

Gecnin xeyrindən yaxşı olan gündüzün şəridir
Dərdin ən ağırını tək aparan tısbağa hünəridir, mənimki
Hərəkətdə gizlədilmiş hüzndür bu
Nəyi unudarsan tısbağa olar
Sən bunu bilməzsən, hardan biləsən
Özünü özünə çanaq eyləyər
Gizlənər çanaqda, gəzər çanaqda
Tısbağa olmağa dözər çanaqda
Sən bunu bilməzsən, hardan biləsən.

11.

Bir gün tısbağalar bezər çanaqdan!!!

12.

Ümidin oğulluğa götürdüyü sabahlar böyüyüb
Hərəsi yekə bir dünən olub
Ayaq üstəyik hamımız
Keçmişlə gələcyin arasında bütün yerlər tutulub
Payız seçkini saxtalaşdırıb
Bütün yarpaqlardan öz adı çıxıb
Külək ağacların icəzəsiz küçə yürüşünü dağıdıb
«gələcək keçmişə məxsusdur» adlı dahi rəhbər
Xalqın tələbiylə vətənə qayıdıb
Özüylə İsrafilin şeypuruna bənzəyən bir şey də gətirib
Yellər əsməyəndə belə otları titrəşən
Balaca qəbristanlıqdakı
Bütün ölüləri oyadıb, başına yığıb
Xudmani bir qiyamət günü yaradıb
Ayaq üsətəyik hamımız
Keçmişlə gələcəyin arasında bütün yerlər tutulub.

13.

Saçından bir tük düşüb əlüzyuyana
Qadından bir tük də qənimətdi, tək yaşayan insana
Hisslərin tarixini yazan şair sübut edir ki,
İlk dəfə beş min il öncə darıxıb insan
Üç min il əvvəl sevməyi öyrənib
Son min ildə unutmaqla məşğuldu
Yazır ki,
İnsan hər gün atılmışdı, insan hər gecə duldu.
Bəlkə də…
Bəlkə də, divardan, daşdan süzülüb keçdiyi üçün
Daha hüznlü səslənir qonşu evlərdə nəğmələr
Bəlkə də daşa, qayaya – torpağın əcdadına

Yazıldığına görə
Daha müqəddəsdir qədim kəlmələr

Bəlkə də, düz deyir şair, uzaqlıyıq hamımız
Onə görə bezdirir bizi yaxındakılar
Sevindirir bizi uzaqdan gəlmələr.

**14.**

Əlini ver, vidalaşaq, Bakı
Ağzımın dadını itirmisən kafelərində
Cibimdən pul çəkmisən vağzallarında, eybi yoxdu.
Doqquz dəfə döydürmüsən tinlərində
Yarımcan etmisən məni, olan işdir
Qulağımın dincliyini
Bir dəfə də kasıb vaxtı iki əzik üçlüyümü
İtirmişəm küçələrində, halal xoşun
Üç qız, iki dost tapmışdım əvəzində
Gətirmişəm qaytarmağa
Sağ ol Bakı.
Bu da quru çörəklərin –
İsladıb qoyunlarına, toyuqlarına verərsən –
Əlimdə, bu torbadakı.

**Uzağa ithaf**

Gözlərindən ötrü darıxırlar burada
Baxılmaq istəyirlər sənə
Doluşublar bir evə

Əllərindən ötrü darıxırlar burada
Sıxılmaq istəyirlər sənə
Gecə boyu yatmayıb,
Vurulaq, bölünmək, toplanmaq, çıxılmaq istəyirlər sənə

Tək-tənha şax dayanmaq yorub burdakıları
Yıxılmaq istəyirlər sənə
Doluşublar bir evə.

## Tanrıya SMS

Əziz tanrım,
"Kafirlər" sənin qarşında günahkardır
"Möminlər" bizim.

## Fani

at! Sənə baxıram, günbatana baxıram
ondörd yaşlı Teymurləngi görürəm
bədəni at, baş insan olan döqdayaqlı fatehi
Teymurləngin yarısı sənsən, at.
fatehin yarısı sənsən
qaçışın qaçmaq deyil
qaçışın – ən qədim hücumdur yer üzünə.

at! Ağzıköpüklü atlar çapır xəyallarımda
yoruluram, evdən çıxıram
evdən çıxdığımı unuduram
tələsik qayıdıb evdən bir də çıxıram
küçələri, küçələrində saqqız çeynəyən fahişələri,
fahişələrinin saçını yolan pozğun küləkləriylə
yolumu kəsir şəhər
Bakıyam mən, şəhərəm! Bu da mənim zir-zibilim…
Səkilərdə çörək görsəm diksinirim
at! Çörəyin bolluq iddiasındandır ki,
ölkədə acların sayı çoxdu
sevginin müqəddəsliyinin nəticəsidir
qadınlar Sizifin ağır daşı kimi arxayındılar.
getdikcə hüzünlü bir fikrə çevrilir bədənim
hər yerimlə düşünürəm…
çörək bir az az bol,
sevgi bir az az müqəddəs olsaydı…

at! Sənə baxıram, Teymurləngi görürəm günbatanda
yorulub, oturur daşın üstə yorğun Teymurləng
əzrayıl kölgəsi, axsaq hökmdar
tarix yubanır,
dincəlir, bədəni at, başı insan,
qarğışlarda igid ölən, qara geyib, göy bağlayan
dördayaqlı, iki əlli qorxunc fateh
baxır qılıncına –
əsəblə dəmirin qarışığına

boynunu ağrıdır qılıncın ruhu
uçur gunbatana teymurləng quşu

- teymurləng… teymurləng…
artıq qəbirdəsən
vətənin ən təhlükəsiz yerindəsən

Teymurləng, Teymurləng,
faniliyinin qisasını alan qorxunc insan
qılıncına sadiq, atına şərik
fanilik duyğusundan
törəmişdi bu düşmənçilik.

at! Sənə baxıram, günbatana baxıram
xırsım soyuyur.

**Elçin Səlcuğun dilindən**

Əlvida Gülsara,
Getdin xalq oldun sən də
Çox oldun.

Nə olsun ki,
Yazı taxtalarının qabağındakı təbaşirlər ağ idi
Yazılan yazılar ki, qara oldu

Əlvida Gülsara
On uşaq doğub on qatilin həyata vurduğu ziyanın əvəzini
Öz qarnından ödəyən
Bir qadının oğluydum mən
Əlvida.

Kasıb idik
Masamızın üstündə quru yumruqdan savayı
Nifrətimiz yox idi evdə.
Günlərlə ağzımıza atmağa
Qarğışımız, lənətimiz olmazdı
Bayquşumuz çoxdan qurtarmışdı çardağımızda
Dərmanlarımıza xəstəlik ala bilmirdik
Qaytara bilmirdim
Qonşulardan borca götürdüyüm öskürəkləri
Əlvida Gülsara.

Əlvida,
Sən mənim əllərimin,
mən sənin ayaqlarının alnına yazılmışdıq

əlvida Gülsara
getdin xalq oldun sən də
çox oldun.

Əlvida Gülsara.
Ağzı üstə uzanmışam yoxluğuna
Alnı üstə uzanmışam…

**Xəstə şərqin ölümqabağı Rafiq Tağıya dedikləri**

Doktor,
Bizimlə bir gündə doğulan canlılar,
Bu gün həyatda yoxdular
Çoxdan ölüb yaşıdımız köpəklər,
Tay-tuşumuz atlar… həşaratlar
Biz
hələ də ayaqqabılarımızan təzəliyiylə
Gizləmək istəyirik ayaqlarımızın köhnəliyini
Dabanlarımızın çat atmış saxsısını
Özünüzü yormayın, doktor
Onsuz da biz
Qan sözündə gizlənmiş qırmızılıqdan qorxuruq
Axıdılan qanlar göz yaşına
Tökülən göz yaşları qana çevriləndə
Başlanır tarix
Və
Ən çətin günlərində özündən başqa
Yanında heç kim olmur insanın
Biz bunu bilirik.
Ümid saman çöpüdür, doktor
Boğulanının əzabını uzadır.

Bu gün küləkli gündür
Qar yağır ağacların açıq yaxasına
Qara adamlar girir küçələrin ağ yuxusuna
Bu gün
Özünü xilaskar bilir hər nəğmə!
Bu gün küləkli gündür
Ağaclar meyvəsindən, tanrılar bəndəsindən
Arvadlar ərindən bərk-bərk yapışıb

Çıxıb getməli gündür.
Bu gün səhər
Evimizi yığışdıran iflic olmuş xəstə anam
Cocuqluqda geyindiyim köynəyi göstərdi mənə
Cocuq olaraq qalmışdı köynək
Yaxasına tikilmiş üçkünc qorxu duasını açıb oxudum
İyirmi səkkiz il sonra:
«Mənim balam, üzünü nəyə tutdunsa, gələcəyindir
Arxanı nəyə çevirdinsə keçmişindir
Alnını nəyə söykədinsə, müqəddəsdir»

Atanın məzarı da atadır!
Ağlamaq deyirsiniz,
ağlamaq irsidir bizdə
Göz yaşı mənə atamdan keçib
Özünüzü yormayın, doktor
Onsuz da
Həmişə qurbanından yaşca böyük olacaq qatil
Balıqdan yaşca böyük olacaq balıqçı
Tale insandan,
Ölüm həyatdan yaşca böyük olacaq həmişə
Həmişə
Yaşca sevginin atası yerində olacaq nifrət
Ölkədən yaşca böyük olacaq hökmdar.
Yaşca hamıdan, hər şeydən kiçikdir
həyatın sonbeşiyidir insan
Buna görə hər şey hamı
Məni belə amansızlıqla öldürür
Soyuq bir qarışqa giziltisi var sümüklərimdə
Gecəniz xeyrə qalsın, doktor,
Mən ölmürəm
itkin düşürəm!

**Şəkil**

*"unudulmuş əlyazmalar"dan biri*

Evdə təkəm,
şəkilinə baxıram
Zəng eləyir arvadımın xalası…
Yağış yağır çəkdirdiyin şəkildə
Bir it də var,
arsız həyət tulası

Yağış yağır çəkdirdiyin şəkildə
Hətta bir az külək əsir, sazaqlı
Sol yanında hüzünlü bir uzaq var
Şəkillərdə yaxşı düşür uzaqlıq

Bir kişi də keçir arxa tərəfdən
Heç baxmırsan,
gözün elə məndədir
Həyata bax, necə gözəl yalandı
Gecə keçir,
ömür qalır,
gün gedir

O kişidən mənim gözüm su içmir
O kişini tanımırıq sən, ya mən.
O kişini evdən qova bilmirəm
Neçə ildir, bizdə qalır şəkilnən

Gecə hərdən hürür həyət tulası
- Ay it! Ay it!
Çımxırıram şəkilə
Bu şəkildə özündən də gözəlsən
Necə edim bu şəkilə çəkiləm?

Bir uşaq da bərk-bərk tutub əlindən
Sağın uşaq,
sol tərəfin uzaqlıq
Mən bilirəm,
şəkillərə çəkilib
Qocalıqdan daldalanır uşaqlıq

Bilirəm ki, yorulmusan şəkildə
Necə alım əlindəki səbəti
Necə öpüm yanındakı uşağı
Necə qovum
o kişini, o iti

Necə qovum,
kişi bəlkə ərindir
Uşaq sizin,
it də evin tulası
Evdə təkəm,
şəkilinə baxıram
Zəng eləyir arvadımın xalası.

**Sevgi şeiri**

Səni boşayandan sonra
Bekarçılıqdan ən düşük romanları oxudum,
ən sarsaq şairləri əzbərlədim
bağışladığın saatı da
bir axşam kefli vaxtımda
«Sahil bağı»da qolumdan açıb
şam ağacının budağına bağladım.
Günortanın istisində evimizin çardağına çıxıb
Nəfəsli musiqi alətlərində ifa olunan
zəhləmgetmiş muğamatları dinlədim
Bu mahnılardan ifaçı kişinin ağzının pis qoxusu gəldi
Elə bil qulaqlarıma
İyrəndim
Ögüdüm
Qusdum
Kəsilən buğa başı kimi bir ağız kədərlə böyürüb susdum.
Pencəyimin yaxalığıyla ağlağan üzümü gizləyib
şəhəri dolaşdım.
Gün boyunca
Üç dəfə məscid minarəsinin kəlləsindən azan oxundu
Üç dəfə allahın tək olduğunu car çəkdi dindar
Bu qədər özünüreklam
Böyük qüdrət sahibinin nəyinə gərəkdir görəsən?
düşündüm
Əlimi yellədim, «Boş ver» dedim özümə, «Boş ver!»
Yuxarıdakıların səsindən bezdim
İyrəndim
Ögüdüm
Qusdum
Kəsilən buğa kimi bir ağız kədərlə böyürüb susdum
Aşağıdakıların...
...aşağıdakıların... səsini eşitmək istədim
Yerə əyildim qulağımı torpağa dirədim
Qulağıma cücü girdi.
Siz yəqin kişilərin necə ağladığını görməmisiniz
Uzun və yoğun bir «I» hərfinə bənzəyir kişi ağlamağı
Zorla çıxır boğazdan, cıra-cıra, yandıra-yandıra
Kösöv kimi
Ən əzablı ağlamaq növüdür «I»
Göz yaşları öz başlanğıcını hansı bataqlıqdan götürür, ustad
Hansı dənizə tökülür göz yaşlıra?
Sonra evə qayıtdım
Dəli olduğumu düşünüb, başıma bir ovuc duz çevirdi
iflic olmuş xəstə anam
Duzu ocağa atdı
O gün hər şey, hamı məni ağlatdı.
Sonra intihar məşqləri etməyə başladım
evimizin çardağında
Bir kağıza «necə də daşürəkli adamlarsınız,
Sizin ürəklərinizdə mən ancaq cib bıçağımı sürtüb itiləyərdim»

Yazdım

Əlimi tapança kimi tutub, gicgahıma atəş açdım
Yıxıldım, öldüm
İstənilən ölüm intihardır!
Onsuz da ən axırda insan həmişə özü-özünü öldürür.
Yıxılmaqdan, ölməkdən bezdim
İyrəndim
Ögüdüm
Qusdum
Kəsilən buğa başı kimi bir ağız kədərlə böyürüb susdum.

Səni boşayandan sonra
evdən qaçdım
Qaçıb şəhərləri, kəndləri dolaşan avara,
nəhəng pəhləvanlara qoşuldum
yumruqumla taxtalara mismar vurdum
içki şüşələrini sındırıb üstünə uzandım
dişimlə ağır yük avtomobillərini dartdım
arıq canımla dözdüm
nə can-cəsədim var axı,
bir sümük, bir dəri
gecələr yuxuma girdi gözlərin
gözlərin yaddaşımın bədənindən heç vaxt silinməyən
bir cüt yanıq yerləri.
Bu illər ərzində anladım ki,
insanı ən ağır günündə atıb gedən insandır, dost
ən ağır günlərində atıb getdim dostumu
ən ağır günlərimdə atıb getdi məni dostum
iyrəndim
ögüdüm
qusdum
kəsilən buğa başı kimi bir ağız kədərlə böyürüb susdum
Tanrıya da inamımı itirdim
tanrı ədalətli olsaydı
Pələngə də, ceyrana da eyni sayda ayaq verməzdi, ustad
Qaçanın ayaqlarının sayını
qovanınkından çox edərdi, heç olmasa.
Yaşamaq üçün hamı bir-birinin ətini, həyatını yeyirsə
Günlərin bir günü insan da
At kimi
İt kimi
Qocalırsa, ölürsə
Həyat peşəkarların yox, həvəskarların uydurmasıdır, ustad

Səni boşayandan sonra
içkiyə qurşandım
Səndən sonra evimə fahişələr dadandı
Ən kədərli nəğmələr,
boş şüşələr dadandı
Qadın düşkünü etdin məni, zavala gəlməyəsən!
Budur, yenə içə-içə ucuz kafe küncündə
insanların üzündəki
uzaqlığa baxıram
Batan günəş haqqı

yağan qar haqqı
Şar üçün ağlayan uşaqlar haqqı

Ünvanı itirmiş əcnəbi haqqı
Ömrüm səni unutmağa xərcləndi
İyrəndim
Ögüdüm
Qusdum
Kəsilən buğa başı kimi bir ağız kədərlə böyürüb susdum.

## Keçmiş haqqında ənənəvi fikirlər

*Elmira xanım üçün*

O vaxt...
dəli bir oğlandım
Dünyanın da qız vaxtıydı
Gəlib getmək asan idi
Biletlər su qiymətinə
Yolların ucuz vaxtıydı

O vaxt...
hər şey yadımdadır,
Bir qadın un ələyirdi
Bir uşaq da at çapırdı
Qürubda bir yalqız ağac
Dabanlarını qaldırıb
Göyün üzündən öpürdü

Süddən təzə ayrılmışdıq
Qənddən təzə ayrılmışdıq
Dişimiz siçan dişiydi
Çörəyin tabaq vaxtıydı
Nə başınızı ağrıdım
O vaxt pulun pul vaxtıydı
Allahın allah vaxtıydı

## Sıldırımın qırağında

Dərələrdə boş-boşuna axıb gedən
dinc suların olmasaydı
Yamaclarda öz-özünü çapıb-çapıb qan-tər edən
Dəli və şən dayçaların
Güllə dəymiş yalquzağa qaranlıqda qahmar çıxan
əliyalın, qara qorxunc qayaların
Qoşa uçub tək qayıdan
tənha-tənha leyləklərin
Hamını eyni isladan yağışların
Hamını eyni üşüdən küləklərin
Hamıda bir səslə vurub
hamıda bir səslə susan
Ürəklərin,
Ürəklərin,
Ürəklərin
olmasaydı

Mən özümü göydən atıb öldürərdim.

## Evə dönüş

Dostlarım o qədər kasıb idilər
Çörəyimi böldüm aralarında
Kimisinə yağlısı düşdü,
kimisinə yavanı
Dostlarım elə balacaboy idilər
Göy üzü kimi görünürdü onlara
otağımın tavanı.

Dostlarım elə ümidsiz idilər,
Ömrümü böldüm aralarında
Birinə gündüzü düşdü,
o birinə gecəsi
Dostlarım o qədər yazıq idilər,
Kimisinin ayaqları yox idi,
kimisinin çəkməsi

Dostlarım o qədər yalqız idilər,
Sevgilimi böldüm aralarında

Birinə ayaqları düşdü
o birinə əlləri
Ana!
Çörək doğra, ağlama ana!
Ömründə bircə gün dost olan adam
Evə bu cür dönür,
bir sümük,
Bir dəri...

**Niyə**

Mənim şair dostum,
Mənim ən dostum!
De niyə dərdlisən,
solğunsan niyə?
Biz ki, uydurmadıq allahlar təkdir
Biz ki, uydurmadıq sonuncu bizik.
Düzünü söylədik,
allahlar çoxdur!
İnsanlar,
İnsanlar,
İnsanlar təkdir!

Mənim şair dostum,
mənim ən dostum!
De niyə dərdlisən,
Solğunsan niyə?

**Kənd gecəsi**

Necə də uzaqdır üfüqlər bu gün
Məni görən kimi tanıyacaqsan
Əlimdə bir salxım göz yaşı tutdum

Kədərdir, boş qalmış insan çəkməsi
Məni görən kimi tanıyacaqsan
Ayaqlar çəkmədən daha fanidir

Ölümlər köhnədir, ölülər təzə
Məni görən kimi tanıyacaqsan
Cum de öldürdülər!
Durma, qaç bizə

Gecəyə əl basıb and içirəm ki,

Məni görən kimi tanıyacaqsan
Sevmədiklərimin gözəlliyindən.

## İNSANLARA İTHAF

### İki min d                              örd yüz ildir ki...

Qədim yunan filoslarından biri deyib ki,
Xoşbəxtlik ikinəfərlik məsələdir.
Bəs hanı o ikinci nəfər, kimdir o, hardadır, hansı cəhənnəmdədir?
İki min dörd yüz ildir ki, biz onun yolunu gözləyirik
İki min dörd yüz ildir ki, biz təkik
İki min dörd yüz ildir ki,
Biz başımızı yazı yazdığımız masanın üstünə qoyub ağlayırıq.

Biz əsgərdə olanda bizim hərbi hissəyə
İkinci cahan savaşında dondurulmuş ət şaqqaları gətirilirdi
Bir savaşda dondurulmuş ətləri
Başqa bir savaşda yeyirdik
Bəlkə elə yıllar öncə dondurulmuş ət şaqqasıdır
Həmin ikinci nəfər.
O, mənim qarşıma çıxsa
Baxmaram böyrəklərimdə daş var
Baxmaram qan azlığından çəkdiyim ağrılara
Ən azı, öldürməyin nə olduğunu bilməyən əllərimi verərəm ona
düşmənlərini öldürmək üçün
ancaq o yoxdur, heç olmayacaq da.

Adam yorğanın altında daha yaxşı anlayır
Tək qaldığını
Sizi bilmirəm, şəxsən mən insanı tək görəndə
Çoooooooooooooooooooooooooooooooox darıxıram
Lap mağara divarından sallanıb qış yuxusuna gedən quru yarasaya dönürəm
Lap o yarasanın büzüşmüş dəri qanadına çevrilirəm
Bataqlıqda batsa belə insana kömək etmək, əlindən tutmaq
Onunla batmaq lazımdır.
Batan, boğulan insanı belə tək qoymaq qəddarlıqdır, Səda
Bu gün yanvar ayıdır,
Mənim üçün keçmiş dekabrdır
Bu gün hərə bir cür bədbəxdir, mən iki cür
Qalxıb pəncərəni örtürəm.
Əsən külək həyətdəki küknar ağacının tozunu
Otağa  doldurur,
Məni toz basmış insana çevirir
Gec doğmalaşıb, tez ögeyləşən toz basmış bir kişiyə.

Mən həqiqəti yalnız
Dadın alma boyunca bərabər paylanmasında gördüm
Başqa heç yerdə
Üzümü uşaqlara tuturam:
- uşaqlar tanış olun bu kədərdir!
Evimizə əlidolu gələn yeganə qonaq
Dişləriniz töküləndə ağlamayın, bu kədər deyil
Onların yerindən yenisi çıxacaq
O şeylərin yerinə ağlayın ki,

Onların yerindən heç vaxt yenisi çıxmır.

gözəl qadın,
Sənə isə bircə söz demək istəyirəm,
Dünyada gözəllikdən bol heç nə yoxdur!
Heç nə!!!

**Qadın ev heyvanıdır**

*Xaqani H. üçün*

O şəhərdə ki,
Doğma evində türmə həyatı yaşayanlar
Sevdiyi qadını özgə arvadı kimi qucaqlayanlar
Halal çörəyini əsir düşmüş əsgər kimi çeynəyənlər var
O şəhərdə
Başımızın üstündəki səma hələ göy deyil
Ayağımız altındakı torpaq hələ yer deyil

Bir aydır ki, bizim evdə saat doqquzdur
Pəncərədə vurnuxan qara milçəyin vızıltısını dilimizə çevirirəm
Bilirəm ki, milçək şüşənin o biri üzü üçün oxuyur
O biri üzündəkilər üçün oxuyur
Nə milçək təkdir bu evdə, nə də mən təkəm
Doğub, törəyə bilirsə, heç bir canlı tək deyil
Demək hər bir canlının içində başqaları var
Masamın üstündə bir boşqab sup buğlana-buğlana düşünür
Sup da düşünür, mən də düşünürəm
Düşünürük ki,
Vətən insanın doğulduğu yer deyil
Vətən insanın oldüyü yerdir!

Sən gedəndən sonra yerini adının çəkilməsini istəməyən
Bir qadından soruşdum
Qadın dedi: «o, adam bəlkə də evimizin damında yaşayan
Vəhşi göyərçinlərin arasındadır
Bəlkə də yol boyunca düzülmüş
Tozlu küknar ağaclarının sırasındadır
Evdən çıxanda əynində boz pencək, qara şalvar
Ayağında ipli ayaqqabı,
Gözündə ümid vardı…
Həftənin tək günləri tanrıya inanar,
Cüt günləri inanmazdı
Qışda sobanın dibində büzüşüb yatardı
Qonşuda təzəcə doğulmuş cocuq ağlayanda yaşamaqdan qorxardı
Evdən çıxanda əynində ümid vardı

Siqaretini başqasının siqaretində yandırmaz
Saatını başqasının saatıyla qurmazdı
Onun da qadınları səninkilər kimi xəyanətkardı
Evdən çıxanda içində ümid vardı»
Qadına inanmadım!
Mən bilirəm, yer üzündə  yalnız bircə qadın var
Yerdə qalanlar onu yamsılamaqla məşğuldur
Mən bilirəm, qadın ev heyvanıdır
Kişi onu təbiətdən tutub əhilləşdirib
Qadına inanmadım.
Bizi tərk etmiş insanın ismin «Kim» sualına yox,
«hara» sualına cavab verdiyini də bilirəm
Atam öldü.  O,  artıq yerdir, oradır
Günbatandır
Evimizdən çıxanda üstündə ümid vardı.

Qadına inanmadım
Qalxıb evdə gəzişdim, ölkəmə baxdım
Bu ölkə mənə qarnındakı cocuğu yumruqlayan
Zalım ananı xatırlatdı
Bu ölkə mənə xəstə cocuğun ikrahla yediyi yeməyi xatırlatdı
Bu ölkə mənə acları və yoxsulları
Dilənçi ovcundakı əzik pulları
Zibil yeşiklərində qaynaşan siçovulları xatırlatdı
Bu ölkə mənə
Bəzən əlimdəki siqaretin külünü çırpmağa yer tapmadığım dünyanı xatırlatdı
Bu ölkə mənə sərçələr dənləməsin deyə
Kənd arvadlarının günəbaxanların gülümsəyən üzünə
İnək poxunu yaxmasını xatırlatdı
Arvadların qanaxmasını xatırlatdı
Baş götürüb getmək istədim
Ancaq yenə gəzişdim, düşündüm…
Görünür burda da kimsə olmalıdır
Doğma evində türmə həyatı yaşamalıdır
Sevdiyi qadını özgə arvadı kimi qucaqlamalıdır
Halal çörəyini əsir düşmüş əsgər kimi çeynəməlidir…
…DIR, …DUR, …DÜR…

## Yüz qırx yeddi dənə sən

Sən heç «Nə üçün qanla başlanır qadın?» romanını oxumusan?
Hardan oxuyasan, heç bu romanı yazan olub ki?
Dünən gecə dostum Salamla araq içirdik, sevgidən danışırdıq
«18 yaşına çatmayanlara sevgi qadağandır» - deyirdik
«Sevgi iki nəfər arasına çəkilmiş bərabərlik işarəsi deyil,
Bərabərsizlik işarəsidir» - deyirdik
«İki nəfər arasındakı yeganə bərabərlik təklikdır» - deyirdik
«Bərabərlik işarəsi riyaziyyat elminin fırıldağıdır,

Həyatda bərabər olan iki heç nə yoxdur» – deyirdik
Rus arağı içirdik.

Sən heç öz evciyində  gildən insan düzəldən
balaca tanrı görmüsən?

Bu gün evdə darıxdım, qalxıb yüz qırx yeddi dənə «sən» saydım
Yüz qırx yeddi dənə sən
Biz bir yerdə olanda heç bu qədər çox deyildin
Nəsə bir az az idin
Küləkli havada ağzımda xırçıldayan qum dənəsi qədər az.
Mənim evim yox idi
Mənim  dörd küncüm var idi, hər küncdə bir hörümçəyim var idi
Başımın üstündə bir damım var idi
Bir qapım, iki pəncərəm var idi, sən gələnə qədər.
Sən gələndə mən tək idim, pivə içirdim
Nəfəsimdə qurudulmuş duzlu  balıqlar üzürdü
Yalnız sənin bədənin idi, mənim təkliyimin maya dəyəri
Yalnız sənin bədənini ödəyib
Satın almaq olardı mənim təkliyimi
Öz mayasına satdım sənə təkliyimi

Sən gələndə mən tək idim, nənəmi düşünürdüm
Sən gələndə nənəmin gözləri bizi çoxdan unutmuşdu
Nənəmin gözləri tək qalmışdı
Onun iynəsini saplayan biz cocuqlar
Bu qoca arvada  gözlərindən girib çıxırdıq
Nənəmin gözləri biz onun içində olanda örtüldü
Biz nənəmin içində ağlaşa – ağlaşa qaldıq
İnsanın parça – parça öldüyünü heç kim deməmişdi bizə
Bizə deməmişdilər ki,
Döşlərindən başlayır ölməyə
qadın bədəni
Deməmişdilər ki,
Ən axırda qadının ayaqları ölür
Biz gözümüzü açanda nənəmin döşləri çoxdan ölmüşdü
Sinəsində basdırmışdı ölmüş döşlərini nənəm
Nənəm öləndə adamlar əllərinə tüpürüb, beli götürdülər və dedilər:
- şükür sənə ilahi, çoxdan idi ki, yaxşı adam basdırmırdıq.

Sən gələndə tək idim, insanlara məktub yazırdım
Yazırdım ki, ey insanlar,
sizinlə bir dünyada yaşamaq
Evinizin yanında ev tikmək, sizə qonşu olmaq
Heç bilirsiniz necə çətindir?
Sən gələndə sənə demək istəyirdim ki, darıxma
Küləklər səni  çox sevdiyindən
Hamıdan çox üşüdəcək
Yağışlar səni hamıdan çox isladacaq
Dəniz səni çox sevdiyindən
Hamıdan tez boğacaq sularında
Balıqlar səni çox sevdiyindən
Hamının cəsədindən tez gəmirəcəklər cəsədini

Torpaqlar bütün sümüklərdən tez çürüdəcəklər
sənin sümüklərini
hər şey, hər şey  səni tələsdirəcək ki,
Mənə tez qovuşasan

Sən gələndə mən canlı deyildim, adam deyildim
Mən sənin gəlib çıxdığın yer idim!

## At ətindən dost

*Seymur Baycan üçün*

Semir, haydı
Özümüzə hiduşqa ətindən qadın yaratmağın vaxtı çatdı
Vaxtı çatdı, dostumuzu adamlara göstərib deməyin:
- tanış olun, dostumdur, xalis at ətindəndir, evdə özüm yoğurmuşam

Semir,
İkinci insani birincisinin qabırğasından yaratdı Tanrı
Bəs üçüncüsünü ikincisinin harasından yaratdı
Bəs dördüncüsünü,
Bəs beşincisini...
Bilmək istəyirəm ki,
Mən indi atamın harasındanam, harasıyam, harasındayam

Semir,
bilirsən nə üçün darıxır insan?
Elə bil, bu qədər quşun, otun, həşəratın arasında
Nəsə çatışmır,
Elə bil, kimsə yoxdu, gəlməyib hələ
Mən həmişə bədənimin qabaq tərəfiylə darıxıram
Bədənimin qabağıyla gözləyirəm onu – Gəlməyəni.

Semir,
Bu gün avtobusda bir qoca öz-özönə gülümsəyib dedi ki,
Yoldaşın olmaması yalqızlıq deyil
Yalqızlıq yolun olmamasıdır.